# Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı prioritet istiqamətdir




Yer kürəsində texnikanın yaranması birbaşa bəşər tarixinin təşəkkülü ilə əlaqəlidir. Bəşər övladının keçdiyi inkişaf yolu sübut edir ki, texnikanın yaranma tarixi maddi istehsalla bir vaxtdan başlayır və onu yaradan əsas səbəb insanın təbii ehtiyacları ilə birbaşa bağlıdır. İnsanın ilkin istifadə etdiyi vasitələr təbiətdə hazır şəkildə mövcud olmuş, sonradan tədricən bu vasitələr digər təbii vərdişlərin köməyi ilə istifadə üçün daha yararlı vəziyyətə salınmış və müasir həddə çatanadək uzun tarixi inkişaf yolu keçmişdir.

Planetimizdə yazının, çap üsulunun, teleqraf və telefonun kəşfindən sonra XX əsrin sonlarından başlayaraq elm və texnikanın sürətli inkişafı nəticəsində elektron-hesablama maşınlarının, mikroprosessorların və kompyuterin, telekommunikasiya və əlaqə şəbəkələrinin yaradılması növbəti informasiya inqilabının əsasını qoydu. Yeni informasiya texnologiyalarının ictimai fəaliyyətə tətbiqi informasiyanın elektron formada hazırlanmasına, emalına, ötürülməsinə, toplanmasına və mühafizəsinə imkan yaratdı.

Artıq heç kim üçün sirr deyil ki, müasir şəraitdə hər bir ölkənin əsas inkişaf istiqamətlərindən biri cəmiyyət həyatının bütün sahələrinin kompyuterləşdirilməsi və informasiyalaşdırılmasıdır. XXI əsrin, başqa sözlə desək, III minilliyin başlanğıcından etibarən dünyanın müxtəlif ölkələrində, xüsusən də inkişaf etmiş dövlətlərdə informasiya - kommunikasiya texnologiyalarının (İKT) qabaqcıl texnologiyaların inkişafı və innovativ iqtisadi münasibətlərə əsaslanan informasiya cəmiyyətinin yaradılması istiqamətində transmilli fəaliyyət bir qədər də güclənmişdir.

Bu gün dünyanın ən qabaqcıl ölkələri cərgəsində yer almağı qarşısına əsas məqsəd qoyan Azərbaycanın adı informasiya-kommunikasiya texnologiyaları sahəsində dinamik inkişaf edən dövlətlər sırasında çəkilir. Respublikamızda informasiya cəmiyyətinin əsaslarının qurulması yolunda mühüm addımlar atılır. Genişzolaqlı internet xidmətlərinin, ən yeni texnologiyaların istifadəsi və rəqəmli televiziya yayımı genişləndirilir, müasir idarəetmənin təmin olunması və şəffaflığın gücləndirilməsi üçün "elektron hökumət" quruculuğu istiqamətində ardıcıl iş aparılır. "Bir pəncərə" prinsipi üzrə təşkil edilmiş elektron xidmətlərin istifadəçilərinin sayı sürətlə artmaqdadır.

Ölkəmiz "Azerspace-1" və "Azersky" peyklərini orbitə çıxararaq dünya kosmik ailəsinə qoşulmuşdur. Azərbaycanın təşəbbüskarı olduğu və mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilən "Trans-Avrasiya Böyük İnformasiya Magistralı" və "Avropa - Yaxın Şərq İnformasiya Magistralı" layihələri uğurla həyata keçirilir.

Bütövlükdə İKT-nin inkişafı siyasəti hazırda Azərbaycan dövlətinin fəaliyyətində mühüm yer tutur. Cəmi bir neçə ildə bu sahə üzrə həm milli qanunvericilik, həm də praktiki fəaliyyət xeyli gücləndirilmiş və ciddi nəticələr əldə edilmişdir. İKT cəmiyyətin və iqtisadiyyatın inkişafına ciddi təsir göstərdiyinə görə dinamik templə sosial və iqtisadi həyatın bütün sahələrində tətbiq olunur, onun əhatə dairəsi hökumət və qeyri-hökumət təşkilatlarını, özəl qurumları, iqtisadi-sosial, elm və mədəniyyət, ictimai-siyasi, təhlil və digər sahələri əhatə edir. Respublikamızda neft sahəsinə alternativ İKT sektorunun yaradılması və inkişafı dövlətin iqtisadi siyasətinin əsas prioritetlərindən birinə çevrilməklə, son 15 ildə bu sahədə çox böyük uğurlar əldə olunub. Ümummilli lider Heydər Əliyevin siyasi uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ölkənin yeni sosial-iqtisadi inkişaf modelinin həyata keçirilməsi üçün zəruri əsaslar formalaşdırmaqla yanaşı, müasir rabitə və informasiya texnologiyalarının sürətlə tətbiqində də böyük canlanmanın yaranmasına şərait yaratdı. Ulu öndər Heydər Əliyevin 2003-cü il fevralın 17-də imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" 10 ilə yaxın müddətdə müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi istiqamətində mühüm vəzifələr müəyyənləşdirdi. Sənəddə qloballaşma dövrünün reallıqları nəzərə alınmaqla çevik və təkmil idarəetməni təmin edəcək "elektron hökumət"in yaradılması da vacib məsələlərdən biri kimi önə çəkilirdi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkədə demokratik idealların daha da möhkəmlənməsini, elmi-texniki tərəqqinin geniş vüsət almasını insan amilinin inkişafında vacib məsələlərdən biri kimi önə çəkir: "Bütün gənc nəslimiz bilikli, dünyada gedən proseslərə bələd olmalıdır. Ən qabaqcıl texnologiyalar Azərbaycana gəlməlidir. Bir sözlə, ölkənin inkişafı məhz bu istiqamətdə davam etməlidir. Dünyada uğur qazanmış, inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o inkişafın, tərəqqinin əsas səbəbləri təbii ehtiyatlar deyildir. Məhz bilik, məhz savad, yeni texnologiyalar - bütün bunlar ölkəyə uğur, rifah gətirir, inkişaf, müasirlik gətirir".

Dünya İqtisadi Forumu tərəfindən hazırlanmış və 2014-cü il mayın 23-də yayımlanmış "Qlobal informasiya texnologiyaları hesabatı-2014" ("The Global Information Technology") adlı illik hesabatda ölkələrin informasiya texnologiyaları sahəsində inkişafını əks etdirən göstəriciyə görə, Azərbaycan 2013-cü ildəki mövqeyindən 7 pillə irəliləyərək, 148 ölkə arasında 56-cı yerdən 49-cu yerə yüksəlmişdir. Hər zaman MDB ölkələri arasında yüksək mövqelərdə yer alan Azərbaycan bu reytinq cədvəlinə əsasən bir çox aparıcı ölkələri də qabaqlamışdır.

Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə təsdiq olunmuş ölkəmizin dayanıqlı inkişaf istiqamətlərini müəyyən edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında "İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi" əsas istiqamətlərdən birini təşkil edir. Burada qarşıya qoyulan məqsədlərə görə, 2020-ci ilə qədər ölkədə informasiya cəmiyyətinə keçid təmin edilməli, innovasiya yönümlü və biliyə əsaslanan iqtisadiyyat qurulmalı, dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi və elektron xidmətlər, həmçinin informasiya təhlükəsizliyi sahəsində fəaliyyət genişləndirilməlidir. Bundan başqa, 2020-ci ilə qədər "Elektron hökumət" xidmətlərinin 100 faiz tətbiqi nəzərdə tutulur ki, bununla da əhali hökumət orqanları tərəfindən göstərilən daha asan, qısa zaman ərzində keyfiyyətli xidmətlərlə təmin olunacaqdır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən, əsas məqsəd-İKT-nin illik artımını təxminən 18-20 faiz ətrafında saxlamaqla, qarşıdakı 8 ildə bu sektorun gəlirlərini 8-9 milyard dollara çatdırmaqdır. Proqnozlara əsasən, həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində qarşıdakı 10 il ərzində İKT sektorunun həcmi təxminən 4,5-5 dəfə artacaqdır. Bu isə Azərbaycanda sosial-iqtisadi inkişafın daha da sürətlənməsinə, insanların rifahının yüksəlməsinə və cəmiyyətin qarşısında duran digər problemlərin uğurlu həllinə öz mühüm təsirini göstərəcəkdir.

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" və s. mühüm sənədlər də təsdiq olunmuşdur. İKT-nin inkişafı yönündə aparılan məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, 2008-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan İKT sahəsindəki inkişaf səviyyəsinə görə MDB ölkələri arasında birinci yer tutmuşdur. Ümumdünya İqtisadi Forumunun hesabatına görə, hazırda ölkə üzrə internet istifadəçilərinin sayı əhalinin 75 faizini təşkil edir. Milli internet provayderlərinin sayı 40-a çatmışdır. Son illər genişzolaqlı sürətli internet istifadəçilərinin sayı 50 faizə yaxınlaşmışdır ki, bu da orta ümumdünya göstəricisindən 2 dəfə yüksəkdir. Ötən 5 ildə internet trafikinin giriş-çıxış həcmi 40 dəfə yüksəlmiş və hazırda 200 GB-dən çoxdur. İnternet xidmətlərindən istifadə haqları region ölkələrindəki tariflərlə uyğunlaşdırılmışdır. Azərbaycanın bölgələrində internet istifadəçilərinin sayı 12-15 dəfə çoxalmışdır. Ucqar kəndləri də nəzərə almaqla Azərbaycanın bütün bölgələrində internetdən istifadə etmək üçün şərait yaradılmışdır. Bu gün təqribən 9,5 milyon nəfər əhalisi olan ölkəmizdə 2 milyona yaxın sosial şəbəkə, o cümlədən 1,2 milyon "Facebook" istifadəçisi vardır. "AZ" domenində qeydiyyatdan keçmiş internet saytlarının sayı 20 minə çatmışdır. Ölkədə 300-ə yaxın xəbər və analitik internet saytı fəaliyyət göstərir və onların sayı durmadan artır.

Son illərdə Azərbaycanda İKT yüksək sürətlə inkişaf edən sahəyə çevrilmişdir. Bu illər ərzində İKT-yə ümumi investisiya qoyuluşunun həcmi təxminən 3 milyard ABŞ dolları təşkil etmişdir. Ölkə ərazisində uzunluğu 1161 kilometr olan Trans-Asiya-Avropa (TAE) fiber-optik kabel magistralı çəkilmişdir. Bu şəbəkə daxili ehtiyatlar hesabına daha da genişləndirilmiş, ölkənin digər bölgələri magistral xəttə qoşulmuş və şimal sərhədinə qədər optik xəttin tikintisi təmin edilmişdir.

Artıq ölkəmizi qələbələrdən qələbələrə aparan daha bir təqvim ili- 2015-ci il başa çatmaq üzrədir. 2015-ci ilin tarixə qovuşması ərəfəsində inamla qeyd edə bilərik ki, bu gün ölkədə prioritet sahə elan edilmiş informasiya-kommunikasiya texnologiyaları Azərbaycanı dünyaya geniş təqdim edən bir vasitəyə çevrilməkdədir. Hazırda Azərbaycanda radio-televiziya proqramlarının peykdən yayımını təmin edən (TV-UP-Link) peyk rabitə stansiyaları ilə yanaşı, xarici ölkələrlə rabitənin təşkili, məlumatların ötürülməsi və qəbulu, internet şəbəkələrinin və daxili korporativ şəbəkələrin yaradılması məqsədilə müxtəlif peyklər üzərindən rabitə kanalları (daşıyıcılar) vasitəsilə bir neçə ötürücü ilə işləyən yerüstü stansiyalar qurulub istifadə edilir. Əhaliyə, o cümlədən ölkə xaricində yaşayan azərbaycanlılara respublikamızla bağlı ən son informasiyaları çatdırmaq üçün İKT-nin imkanlarından geniş istifadə olunur. AzTV, İTV "Lider TV" və digər milli televiziya kanalları, televiziya və radio proqramları "Azərspace-1" ilə yanaşı, iki digər peyk üzərindən də Asiya, Avropa və bütün dünya ölkələrinə yayımlanır. Bütün bunlar, şübhəsiz, Azərbaycan Prezidenti cənab İlham Əliyevin İKT sahəsini ölkədə neft-qaz sektorundan sonra ikinci prioritet sahə elan etməsinin bəhrələridir.

**Rəşad Bağırov,**
***"İki sahil"***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi müsabiqəyə təqdim edilir.**